# “AQROLİZİNQ” ASC

31 dekabr 2017-ci il tarixinə

# MALİYYƏ HESABATLARI
# VƏ
# MÜSTƏQİL AUDİTOR RƏYİ

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyinə

## Rəy

Biz, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra Cəmiyyət) 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

***Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**“V.İ.P.-AUDİT” MMC-nin**

**Direktor-Auditoru** **E.İ.Fərəcov**

**Bakı, Azərbaycan Respublikası**

**27 aprel 2018-ci il.**

## “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti
## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 dekabr 2017-ci il tarixinə

**Azərbaycan manatı ilə**

| | Qeyd | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |

| | | | |
|---|---|---|---|
| *Uzunmüdətli aktivlər* | | | |
| Torpaq, tikili və avadanlıqlar | 10 | 29.542.435 | 31.916.918 |
| Qeyri-maddi aktivlər | 11 | 360.443 | 413.626 |
| Kapital qoyuluşu | 12 | 10.549.462 | 10.549.462 |
| Uzunmüddətli debitor borc | 7 | 516.442.234 | 361.669.678 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **556.894.574** | **404.549.684** |
| Qısamüddətli aktivlər | | | |
| Ehtiyatlar | 9 | 226.947.533 | 133.884.937 |
| Verilmiş avanslar | 8 | 78.285.719 | 55.301.617 |
| Qısamüddətli debitor borcları | 7 | 47.259.261 | 38.717.433 |
| Pul vəsaitləri və ekvivalentləri | 6 | 18.307.208 | 104.743.251 |
| Sair qısamüddətli aktivlər | 22 | 4.652.144 | 15.298.566 |
| **Cəmi qısamüddətli aktivlər** | | **375.451.865** | **347.945.804** |
| **CƏMİ AKTİVLƏR** | | **932.346.439** | **752.495.488** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | | 561.627.545 | 361.627.545 |
| Kapital ehtiyatları | 16 | 19.808.648 | 19.797.075 |
| Bölüşdürülməmiş mənfəət (zərər) | | (43.979.739) | (22.257.971) |
| **CƏMİ KAPİTAL** | | **537.456.454** | **359.166.649** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Uzunmüddətli öhdəliklər | 13 | 352.570.803 | 366.070.803 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **352.570.803** | **366.070.803** |
| Qısamüddətli öhdəliklər | | | |
| Vergi və sair məcburi öd. üz. öhdəliklər | 15 | 64 | 1.517 |
| Kreditor borclar | 14 | 13.373.952 | 8.846.983 |
| Sair qısamüddətli öhdəliklər | 17 | 28.945.166 | 18.409.536 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **42.319.182** | **27.258.036** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **394.889.985** | **393.328.839** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **932.346.439** | **752.495.488** |

___________ ***Məmmədov Elşən*** ____________ ***İbrahimov Şofiq***

***İdarə Heyətinin sədri*** ***İqtisadiyyat, maliyyə və mühasibat uçotu şöbəsinin müdiri***



## “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti
## MƏNFƏƏT VƏ ZƏRƏR HESABAT
## 31 dekabr 2017-ci il tarixinə

| | Qeyd | 31 dekabr 2017-ci il tarixində bitən il üzrə | 31 dekabr 2016 -cı il tarixinə bitən il üzrə |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 18 | 180.771.667 | 127 662 564 |
| Satışın maya dəyəri | 19 | (167.440.701) | (120 970 084) |
| **Ümumi mənfəət və zərər** | | **13.330.966** | **6 692 480** |
| Sair gəlirlər | | 411.098 | 16 470 271 |
| Vergidən azad gəlirlər | | (8.510.242) | 0.00 |
| İnzibati xərclər | 20 | ( 4.163.395) | (10 102 125) |
| Köhnəlmə və amortizasiya | 10,11 | (2.512.408) | (2 800 309) |
| Məzənnə fərqi | 21 | (14.383.155) | 0.0 |
| Nazirlər Kabineti | | 0.00 | (13 835 777) |
| Sair xərclər | 20 | (5.894.632) | (7 499 727) |
| **Cəmi xərclər** | | **(35.052.734)** | **(17 767 667)** |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **(21.721.768)** | **(11 075 187)** |
| Mənfəət vergisi | | | |
| **Xalis mənfəət (zərər)** | | **(21.721.768)** | **(11 075 187)** |

___________ *Məmmədov Elşən*

*İdarə Heyətinin sədri*

____________ *İbrahimov Şofiq*

*İqtisadiyyat, maliyyə və mühasibat uçotu şöbəsinin müdiri*



**"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 dekabr 2017-ci il tarixinə**

| | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi Kapital |
|---|---|---|---|---|
| **01 dekabr 2014-cü il tarixinə qalıq** | **159 519 545** | **747 025** | **(11 372 615)** | **148 893 955** |
| 2014-cü il üzrə xalis mənfəət (zərər) | - | - | 829 525 | 829 525 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 35 000 000 | 19 029 080 | - | 54 029 080 |
| Elan edilmiş dividendlər | - | - | - | - |
| Vergi təsiri üzrə ehtiyatlar | - | - | - | - |
| **31 dekabr 2014-cü il tarixinə qalıq** | **194 519 545** | **19 776 05** | **(10 543 090)** | **203 752 560** |
| 2015-ci il üzrə xalis mənfəət (zərər) | - | - | (639 694) | (639 694) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 40 000 000 | 716 | - | 40 000 716 |
| Elan edilmiş dividendlər | - | - | - | - |
| Vergi təsiri üzrə ehtiyatlar | - | - | - | - |
| **31 dekabr 2015-ci il tarixinə qalıq** | **234 519 545** | **19 776 821** | **(11 182 784)** | **243 113 582** |
| 2016-cı il üzrə xalis mənfəət (zərər) | | | (11 075 187) | (11 075 187) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 127 108 000 | 20 254 | | 127 128 254 |
| Elan edilmiş dividendlər | | | | - |
| Vergi təsiri üzrə ehtiyatlar | | | | - |
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | **361 627 545** | **19 797 075** | **(22 257 971)** | **359 166 649** |
| 2017-cı il üzrə xalis mənfəət (zərər) | | | (21 721 768) | (21 721 768) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 200 000 000 | 11 573 | | 200 011 573 |
| Elan edilmiş dividendlər | | | | - |
| Vergi təsiri üzrə ehtiyatlar | | | | - |
| **31 dekabr 2017-cı il tarixinə qalıq** | **561 627 545** | **19 808 648** | **(43 979 739)** | **537 456 454** |

***___________ Məmmədov Elşən*** ***____________ İbrahimov Şofiq***

***İdarə Heyətinin sədri*** ***İqtisadiyyat, maliyyə və mühasibat uçotu şöbəsinin müdiri***



**“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 dekabr 2017-ci il tarixinə**

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət/ (zərər) | (21 721 768) | (11 075 187) |
| **Qeyri-pul maddələri üzrə düzəlişlər:** | | |
| - Əsas vəsaitlərin köhnəlməsi | 2 459 225 | 2 746 537 |
| - Qeyri maddi aktivlərin amortizasiyası | 53 183 | 53 772 |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | |
| - Ehtiyatlar üzrə (artım)/azalma | (93 062 596) | (20 772 609) |
| - Verilmiş avanslarda artım/(azalma) | 22 984 102 | (21 951 703) |
| - Əməliyyat debitor borclarında azalma/(artım) | 361 669 678 | (53 547 968) |
| - Əməliyyat kreditor borclarında (azalma)/artım | (1 030 907) | 4 047 364 |
| - Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərdə artım/ (azalma) | (61 099) | (61 099) |
| - Sair qısamüddətli aktivlərdə azalma/(artım) | (514 337 640) | 881 064 |
| - Sair qısamüddətli öhdəliklərdə artım/ (azalma) | 18 273 827 | 18 273 827 |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **(224 773 995)** | **(81 406 002)** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | |
| Torpaq, tikili və avadanlıqların alışı | - | (164 049) |
| Qeyri-maddi aktivlərin alışı | - | (111 706) |
| **Cəmi investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkətləri** | **-** | **(275 755)** |
| **Maliyyələşdirilmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Nizamnamə kapitalında artım | 127 108 000 | 127 108 000 |
| Məqsədli maliyyələşmə şəklində pul vəsaitlərinin daxilolmaları | | 20 254 |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | 4 047 364 | (1 030 907) |
| **Maliyyələşdirilmə fəaliyyətləri ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar** | **131 155 364** | **126 097 347** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **(86 436 043)** | **44 415 590** |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlerinin ilin əvvəlinə olan məbləği** | **104 743 251** | **60 327 661** |
| Il ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin artması (azalması) | (86 436 043) | 44 415 590 |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlerinin ilin sonuna olan qalığı** | **18 307 208** | **104 743 251** |

___________ *Məmmədov Elşən*

*İdarə Heyətinin sədri*

____________ *İbrahimov Şofiq*

*İqtisadiyyat, maliyyə və mühasibat uçotu şöbəsinin müdiri*



# 1.Giriş

## Cəmiyyət haqqında ümumi məlumat

“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 28 yanvar 2005-ci il tarixində 0105-P94-42083 saylı şəhadətnaməyə əsasən qeydiyyata alınmışdır. Cəmiyyətin nizamnamə kapitalı 100 % dövlətə məxsusdur.

Cəmiyyətin hüquqi ünvanı aşağıdakı kimidir:
Bakı şəhəri, Bakıxanov qəsəbəsi B.Bünyadov küçəsi 12

Cəmiyyətin əsas fəaliyyəti kənd təsərrüfatı texnikasının lizinqə verilməsindən ibarətdir.

Azərbaycan Respublikası prezidentinin 21 iyul 2009-cu il tarixli 392 saylı sərəncamı ilə Cəmiyyət Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin İdarəçiliyinə verilmişdir. İdarəetmə və nəzarət Cəmiyyətin sədri Məmmədov Elşən Sabir oğlu tərəfindən həyata keçirilir.

31 dekabr 2009-cu il tarixinə Cəmiyyətin nizamnamə kapitalı 20 000.0 manat təşkil etmişdir. 13 may 2010-cu il tarixində Cəmiyyətin nizamnamə kapitalı artırılaraq 15 020 000.0 manat məbləğində Vergilər Nazirliyinin Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində qeydiyyata alınmışdır.

05 noyabr 2015-ci il tarixli Dövlət Reyestrindən Çıxarışa əsasən Cəmiyyətin qeydiyyata alınmış nizamnamə kapitalı 194.519.545 manat təşkil etmişdir. 13 mart 2015-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetin 60 saylı sərəncamına əsasən, Cəmiyyətin nizamnamə kapitalı 40.000.000 manat artırılmış, artırılan məbləğ Cəmiyyətə 18 avqust 2015-ci il tarixinədək tam ödənilmiş, lakin Dövlət reyestrinə daxil edilməmişdir. 31 dekabr 2015-ci il tarixinə Cəmiyyətin ödənilmiş nizamnamə kapitalı 234.519.545 manat təşkil etmişdir.

31 dekabr 2016-cı il tarixinə Cəmiyyətin Nizamnamə kapitalının miqdarı 361.627.545 manat, 31 dekabr 2017 ci il tarixə isə 561.627.545 manat olmuşdur.

## 2. Hesabatların tərtib edilməsinin əsas prinsipləri

*Uyğunluq prinsipi*

Hazırki maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun şəkildə hazırlanmışdır.

*Təqdimatın əsasları*

Maliyyə hesabatları ilkin dəyər prinsipinə əsasən hazırlanmışdır.

*Funksional və hesabat valyutası*

Cəmiyyətin funksional valyutası və bu maliyyə hesabatlarının tərtib olunduğu valyuta Azərbaycan Respublikasının Milli Valyutası olan Azərbaycan Manatıdır (AZN). Manatla tərtib olunmuş bütün maliyyə məlumatları onluğa qədər yuvarlaqlaşdırılmışdır.



## 3. Cəmiyyətin Əmiliyyat Mühiti

**Azərbaycan Respublikası.** Neft ixrac edən bir ölkə kimivə neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azərbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə asılıdır.Bu səbəbdən sözü gedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyuta dəyərdən düşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyrisabitlik kimi bu və ya digər makro-iqtsadi faktorların mövcudluğuna gətirib çıxarır.

2008-2009-cu illərin son qlobal maliyyə böhranından sonra beynəlxalq bazarda neftin qiymətinin aşağı enməsi neft ixrac edən ölkələrin iqtisadiyyatı üçünən böyük təhlükə hüsab olunmaqdadır.2014-cü ilin iyun ayının ortalarından etibarən neftin qiymətində qəfil enmə müşahidə olunmağa başlamışdır və bu bir başa neft istehsal edən ölkələrə, eləcə də Azərbaycana öz təsirini göstərir.Qeyd olunan hadisələrdə öz növbəsində neft sahəsindəki gəlirlərin azalması, neft istehsalatının aşağı enməsi və bu sahədə aparılan əməliyyatların dayandırılması ilə nəticələnir. Neftin dəyərindəki azalma uzun müddət davam edərsə, iqtisadiyyatın genişləndirilməsində uzunmüddətli gerilmələr,bank vədaşınmaz əmlak kimi müttəfiq sahələrə mənfi təsirlərlə nəticələnəcəkdir.

Azərbaycan hökuməti  büdcə gəlirlərinin aşağı enməsinin qarşısını almaq məqsədilə dövlət xərclərinin azadılmasını deyil, alternativ maliyyəmənbələrindən istifadə edilməsini hədəfləyir. Azərbaycan Respublikasının Mərkəzi bankı beynəlxalq valyuta bazarında rəqabət qabiliyyətini qoruyub saxlamaq məqsədilə,valyuta siyasətini dəyişərək 21 fevral 2015-ci il tarixli mətuat bəyanatı ilə Azərbaycan manatının dəyərinin ABŞ dollarına nisbətdə 34 % və 21 dekabr 2015-ci il tarixli mətbuat bəyanatı ilə 48% endirilməsi haqqında qərarını açıqlamışdır. Mərkəzi Bankın bu müdaxilə siyasəti iqtisadiyyatın yeni tarazlıq səviyyəsinə çatdırılması üçün atılan bir addımdır və onun təsiri iqtisadiyyatı tarazlıq səviyyəsi bərpa olunanadək, bu maliyyə hesabatlarının imzalandığı tarixə qədərki dövr üçün qeyri-müəyyən olaraq qalır.

Neft böhranı neft və enerji sektorunun maliyyə və likvidlik mövqelərində əhəmiyyətli dərəcədə təsirini göstərir, bu isə öz növbəsində həmin sahələrə kreditlərin ayrılmasındakı çətinliklərə, həmçinin mövcud borcların ödənilmə qabiliyyətinin aşağı enməsinə gətirib çıxara bilər. Müəsisələrin əməliyyat şəraitinin zəifləməsi rəhbərliyin pul vəsaitlərinin hərəkəti ilə bağlı proqnozlarına, maliyyə və qeyrimaliyyə aktivlərinin dəyərsizləşməsi üzrə qiymətləndirmə proseslərinə mənfi təsirini göstərməsi də ehtimal olunur. Mümkün əldə edilə bilən məlumatlar əsasında rəhbərlik dəyərsizləşmə üzrə qiymətləndirmələrində gələcək dövrün pul



vəsaitlərinin hərəkəti ilə bağlı yenilənmiş təxminlərdən istifadə etmişdir.

Makro-iqtisadi amillərin gözlənilən dəyişiklikləri səbəbindən rəhbərlik bu dəyişikliklərin şirkətinin əməliyyatları üzərində təsirini dəqiq qiymətləndirmək və yarana biləcək nəticələrlə bağlı hər hansı bir ölçü göturmək iqtidarında deyil.Rəhbərlik, mövcud şəraitdə şirkətin fəaliyyətinin davamlılığını və inkişafını təmin etməkçün bütün lazimi tədbirlərin görüldüyünü hesab edir.

## 4. Əsas Uçot Prinsiplərinin Xülasəsi

**Maliyyə alətlərin ilkin tanınma və ölçülmə qaydaları.** Cəmiyyət müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya öhdliklərini öz maliyyə vəziyyəti haqqında hesabatında

tanıyır. Maliyyə aktivlərinin və öhdəliklərinin adi yolla alınması və satılması zamanı əməliyyat hesablaşma günü tanınır. Sonradan əməliyyat və hesablaşma tarixlər arasında ədalətli dəyər üzrə ölçülən maliyyə alətlərinin adi yolla alınması zamanı əldə edilən alətlərin tanınması üçün istifadə edilən prinsiplərdən istifadə edilir.

Mənfəət və zərər hesabatı vasitəsilə ədalətli dəyərdə tanınan maliyyə alətləri istisna olmaqla, bütün digər maliyyə aktivləri və passivlər ilkin olaraq ədalətli dəyərlə ölçülür və bu alətlərin alınması və ya buraxılması ilə birbaşa bağlı olan xərclər onun balans dəyərinə əlavə edilir. Sonrakı dövürlərdə bu alətlərin dəyərinin yenidən ölçülməsi ilə bağlı mühasibat prinsipləri aşağıda özəksini tapır.

(a) Lizinqin tanınması və ölçülməsi

Lizinqin uçotu 17 nömrəli MUBS və 4 nömrəli BMHŞK-na əsasən aparılır.
Aktiv lizinqə götürüldüyü halda, lizinq ödənişlərinin cari dəyəri debitor borcu kimi tanınır.

(b) Lizinqin başlanğıcı.

Lizinqin başlanğıcı kimi lizinq müqaviləsinin tarixi və ya təəhhüd tarixindən ən tez olanı hesab edilir.Bu izahın məqsədləri üçün təəhhüd yazılı, əməliyyata daxil olan tərəflər tərəfindən imzalı olmalı və xüsusilə, \əməliyyatın əsas şərtləri əksini tapmış olmalıdır.

(c) Lizinq şərtlərinin başlanması.

Lizinq müddətinin başlanması tarixi lizinq götürənin lizinq predmeti üzərində öz istifadə hüququ daşınmasının başlandığı tarix hesab edilir. Bu lizinqin ilkin tanındığı tarixdir.



(d) Lizinq üzrə debitor borcların qiymətdən düşməsi.

Cəmiyyətin lizinqin ilkin müqavilə şərtləri üzrə olan borcların toplaya bilməməsi barədə obyektiv sübut olarsa qiymətdən düşmə üzrə ehtiyyat yaradılır. Ehtiyatın məbləği lizinqin şübhəli hesab edildiyi zaman balans dəyəri ilə lizinqin ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılmış lizinq aktivinin satışından yaranan gözlənilən daxil olmaların hazırki dıyıri olmaqla, bərpa edilə bilən məbləğ arasındakı fərqdir.

Ehtiyat məbləği həmçinin, hesabat tarixində lizinq portfelinin komponentlərində mümkün zərərlərin mövcud olduğu barədə obyektiv sübut olduğu halda həmin zərərləri əhatə edir.Onlar lizinqə aid olan gələcək səciyyəvi zərərlər və hər bir komponentdə olan itkilərin ilkin nümunələri və müştərinin fəaliyyət göstərdiyi iqtisadi mühit əsasında qiymətləndirilmişdir.

**Pul vəsaitləri və onların ekvivalentləri.** Pul vəsaitləri və onların ekvivaletləri maliyyə vəziyyəti haqqında hesabatda ilkin dəyəri ilə əks edilir. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitləri və onların ekvivalentləri nağd pul vəsaitlərindan, tələbli depozitlərdən, digər qısamüddətli və onun pul vəsaitinə çevrilməyə hazır olan yüksək likvidli investisiyalardan ibarətdir.

**Əmlak və avadanlıq.** Əmlak və avadanlıq ilkin dəyərindən yığılmış amartozasiya və yığılmış qiymətdən düşmə zərərləri (əgər varsa) çıxılmaqla nəzərə alınır. Son qalıq dəyəri (əgər varsa) nəzərə alınmaqla, aşağıdakı dərəcələrə uyğun olaraq azalan qalıq amotizasiya metodu istifadə etməklə hesablanan nəqliyyat və kompyuter avadanlıqlardan başqa, bütün digər əməliyyat fəaliyyətində olan maddi aktivlər üçün amortizasiya azalan qalıq metodu ilə hesablanır. Hər bir hesabat dövrünün sonunda əsas vəsaitlərin qalıq dəyərlərinə, istifadə müddətlərinə və köhnəlmənin hesablanma üsullarına yenidən baxılır,lazım gəldikdə düzəlişlər edilir.

Əmlak və avadanlığın amortizasiya aşağıdakı dərəcələrlə hesablanır.

| **Kateqoriyalar** | **31 dekabr 2017** | **31 dekabr 2016** |
|---|---|---|
| Binalar, qurğular, ötürücü qurğular | 7% | 7% |
| Maşın və avadınlıqlar | 25% | 25% |
| Nəqliyyat vasitələri | 25% | 25% |
| Mebel və sair inventarlar | 20% | 20% |



Əmlak və avadanlığın balans dəyərinə hər bir hesabat tarixində bərpa edilə bilən məbləğlərinin artıq qeyd edilib-edilməməsini təyin etmək üçün yenidən

baxılır və balans dəyərinin qiymətləndirilmiş bərpa edilə bilən məbləğindən artıq olduğu halda, aktivlər öz bərpa edilə bilən məbləğinə qədər aşağı salınır.Qiymətdən düşmə zərərinin tanınmasından sonra əmlak və avadanlığın amortizasiya xərci aktivlərin yenidən hesablanmış, gələcək dövrlərdə balans dəyərindən qalıq dəyərini (əgər varsa) çıxılmaqla, sistematik əsasda faydalı istifadə müddəti ərzində təyin etmək üçün düzəldilmişdir.

Daxilolmalar üzrə amortizasiya aktivin istifadəyə verildiyi aydan hesablanır, aktivin silindiyi ayda isə amorizasiya hesablanmır. Əmlak və avadanlığın satışından mənfəət və ya zərərlər cari mənfəət və zərər hesabına daxil edilir, istisna olaraq, yenidən qiymətləndirmə artımı birbaşa bölüşdürülməmiş mənfəətə köçürülür. Müvafiq hallarda, maddə ilə bağlı iqtisadi faydaların Cəmiyyətə daxil olacağı və maddənin dəyəri etibarlı ölçülə bilinəcəyi ehtimal olunduqda, sonrakı dəyərlər ayrıca aktiv kimi aktivin balans dəyərinə daxil olunur və ya ayrıca aktiv kimi tanınır.Bütün digər təmir və saxlanma xərcləri mənfəət və zərərə silinir.

**Qeyri-maddi aktivlər.**Cəmiyyətin bütün qeyri-maddi aktivləri hesabatda faktiki maya dəyəri ilə əks etdirilir.Onların faydalı istifadə və ya xidmət müddətinə uyğun olaraq amortizasiya normaları müəyyən edilir. Hüquqlar və ya lisenziya qüvvədə olan müddətlərə uyğun olaraq amortizasiya hesablanır.

Azərbaycan Respublikasında lisenziyalar hər hansı bir fəaliyyət növünə dövlət orqanları tərəfindən verilən xüsusi icazələr təşkil edir və 5 (beş) ildən artıq müddətə verilmir.Faydalı xidmət müddəti ərzindədüz xətli amortizasiya metoduna əsasən amortizasiya olunur.

Əgər qeyri – maddi aktivlərin faydalı istifadə müddəti müəyyən deyilsə, bu halda uçot siyasətinə əsasən şərti olaraq bu müddət 10 (on) il götürülür və düz xətli amortizasiya metodu ilə hər ilə 10% amortizasiya hesablanır.

**Xarici valyuta əməliyyatları.** Xarici valyuta ilə aparılan əməliyyatlar, əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnədə digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir.Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnəsi yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri

müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi kapital hesabına aid edilmişdirsə,məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.

Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur. Onetar maddələr nağd, əldə edilən vəsaitləri, sudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işci müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edilir.

Qeyri-monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərcləri, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər daxil edilir.

Cəmiyyət ilin sonuna maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı xarici valyuta məzənnələrindən istifadə etmişdir

| 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| 1 USD = 1.7701 AZN | 1 USD = 1.7707 AZN | 1 USD = 1.5594 AZN |
| 1 EUR = 2.0307 AZN | 1 EUR = 1.8644 AZN | 1 EUR = 1.7046 AZN |

**Gəlirin tanınması.** Lizinq gəlirlərinin tanınmasında maliyyə üsulu istifadə olunur. Bu üsulla gələcəkdə qazanılacaq lizinq gəliri təxirə salınır və lizinq müddəti üzrəsabit faiz dərəcəsini tətbiq etməklə gəlirə aid edilir.Lizinq müqavilələrinə xitam verildikdə yaranan qazanclar/itkilər mənfəətvəya zərər aid edilir.

**Avans ödənişləri.** Avans ödənişləri, nominal dəyərlə hesabatlarda göstərilir.

**Ehtiyatlar.** Ehtiyatlar, Cəmiyyətin keçmiş hadisələrin nəticəsində mövcud olan hüquqi və ya konstruktiv öhdəliyə malik olması , bu öhdəliklə bağlı iqtisadi resusrların Cəmiyyət tərəfindən xərclənməsi labüd olduğu və öhdəliyin dəyərinin etibarlıbir şəkildə dəyərləndirilməsi mümkün olduğu hallarda maliyyə hesabalarında tanınır.

**Nizamnamə kapitalı.** Nizamnamə kapitalına edilən əlavələr faktiki ödənilmiş dəyəri ilə tanınır.Adi səhmlər üzrə dividendlər, səhmdar kapitalını azaldan maddə kimi təqdim edilir. Hesabat dövründən sonrakı dövrdəelan edilən dividendlər isə, MHBS 10 “Hesabat dövründən sonra baş vermiş hadisələr” standartına uyğun olaraq hesabat dövründən sonrakı dövrdə baş vermiş hadisələr kimi təqdim edilir.

## 5. Yeni standartların və şərhlərin tətbiqi

Maliyyə hesabatlarının hazırlanması üçün aşağıdakı yeni və ya düzəliş edilmiş standartlar ilk maliyyə ilini1 yanvar 2016-cı il tarixindən başlayan müəsisələr üçün məcburidir (Bu siyahı aralıq maliyyə hesabatlarına və ya MHBS-nıilk tətbiq edənlərə, onların MHBS Hesabatlarına təsir edən yeni və dəyişdirilmiş tələblər barədə məlumatlar ehtiva etmir. Məsələn , 14 nömrəli MHBS “Təxirə Salınmış Hesabatlar Haqqında Tənzimləmə mexanizmi”(2014-ci ilin yanvar ayında təqdim olunmuş) – Müəsisə üçün uyğun hesab edilmir).

- Açıqlama Təşəbbüsü adlı 1 nömrəli BMUS-a (2014 dekabr ayında dərc edilmişdir)düzəlişlər və dəyişiklər 1 yanvar 2016-cı il tarixində və ya bundan sonrakı tarixdən başlayan illik dövrlərə tətbiq olunur, əhəmiyyətlilik və ümumiləşdirmə, yarımmaddələrin təqdimatı, maliyyə hesabatlarının strukturu  və uçot siyasətinin açıqlanması üzrə tənzimləmələri izah edir.Dəyişikliklərin Müəsisənin maliyyə hesabatlarına heç bir mühüm təsiri olmamışdır.
- “köhnəlmə və Amortizasiyanın qəbul edilmiş metodikasının aydınlaşdırılması” adlı 16 nömrəli BMUS və 38 nömrəli BMUS-a (2014-cü ilin may ayında dərc edilmişdir) düzəlişlər və dəyişiliklər 1 yanvar 2016-cı il tarixində və ya bundansonrakı tarixdən başlayan gələcək illik dövrlər üçün nəzərdə tutulmuşdur və (i) Aktivin istifadə olduğu fəaliyətdən yaranan gəlir , iqtisadi səmərənin istehlaklarından başqa amilləri aktivdə əks etdirdiyi üçün aktivə amotizasiya hesablamasından gəlir metodlarının istifadəsi uyğun deyil , (ii) gəlir ümumiyətlə qeyri-maddi aktivlərdə iqtisadi səmərənin istehlakının ölçülməsində uyğun əsas kimi hesab olunmur; lakin , bu nəzəriyyə müəyyən məhdud hallarda təkzib oluna bilər.Dəyişikliklərin müəsisənin maliyyə hesabatlarına heç bir mühüm təsiri olmamışdır.
- Kənd təsərrüfatı adlanan 41 saylı BMUS-a 16 saylı BMUS düzəlişlər:Daşıyıcı istehsalat müəsisəsi (2014-cü ilin iyun ayında dərc edilib)- Düzəlişlər, 1 yanvar 2016-cı il və daha sonra başlayan illik dövrlərə şamil olunur , daşıyıcı istehsalat müəsisəsi – bir neçə dövr üçün yalnız məhsul yetişdirilməsi üçün istifadə olunan və məhsuldar dövrün sonunda adətən istifadədən çıxarılan canlı istehsalat müəsisəsində yetişdirilənməhsul isə 41 saylı BMUS-un əhatə dairəsində qalır.Müəsisə kənd təsərüffatı fəaliyyəti göstərmədiyindən bu düzəlişinmaliyyə hesabatlarına təsiri yoxdur.
- 19 saylı BMUS – a düzəliş (BMHS 2012-2014 dövrünə illik təkmilləşdirmələr, 2014-cü ilin sentyabr ayında dərc edilmişdir) – Düzəliş, 1 yanvar 2016-cı il və daha sonra başlayan illik dövrlərə şamil olunur və izah edir ki, işdən ayrılma sonrası pensiya öhdəlikləri üzrə güzəşt dərəcəsinin

müəyyən edilməsində aid oldğu ölkə deyil öhdəliklərin ifadə olunduğu valyuta önəmlidir. Beləliklə geniş bazarda yüksək keyfiyyətli korparativ istiqrazların mövcudluğunun dəyərləndirilməsi həmin valyutada olan korparativ istiqrazlara əsaslanmalıdır (həmin ölkədə olan korporativ istiqrazlara yox), o valyutada olan yüksək keyfiyyətli istiqrazlar üzrə geniş bazar olmadıqda isə muvafiq valyutadakı dövlət istiqrazlarından istifadə olunmalıdır.Düzəliş Müəssisənin maliyyə hesabatlarına təsir etmir.

- 27 saylı BMHS Fərdi Maliyyə Hesabatlarında İştirak Payı Metodu (2014-cü ilin avqust ayında dərc edilmişdir) – Düzəliş, 1 Yanvar 2016-cı il və daha sonra başlayan illik dövrlərə şamil olunur, müəsisə satış üçün təsnifləşdirdiyi aktivi səhmdarlara paylama üçün saxlanan aktiv olaraq və ya təsirinə yenidən təsnifləşdirərkən (və ya müəsisə ləğv olunarkən) və paylamaq üçün saxlanılma mühasibatının dayandırılması hallarüçün xüsusi bələdçi daxil edir DəyişikliklərinMüəsisənin maliyyə hesabatlarına heç bir mühüm təsiri olmamışdır.
- 7 saylı BMHS üzrə Dəyişiklik (BMHS-ə 2012-2014 dövrünə illik təkmilləşdirmələr, 2014-cü ilin sentyabr ayında dərc edilmişdir)- 2016-cı ilin yanvar ayından və ya daha sonra başlayacaq illik dövr üzrə tətbiq ediləcək.Dəyişiklik xidməti müqavilənin köçürülmüş aktivdə davamlı iştirakı barədə təlimatları müəyyən edir.Dəyişiklərin Müəsisənin maliyyə hesabatlarına heç bir mühüm təsiri olmamışdır.
- 10 saylı BMHS , 12 saylı BMHS və 28 saylı BMUS üzrə investesiya Müəsisələri adlı Dəyişikliklər: Konsilidasiya İstisnasının Tətbiqi (2014-cü ilin dekabr ayında dərc edilmişdir) – 2016 – cı ilin yanvar ayından və ya daha sonra başlayacaq illik dövr üzrə tətbiq ediləcək.Dəyişikliklər , kosolidasiya istisnasının investesiya müəssisələri və onda onların törəmə müəssisələrinə tətbiqini Aydınlaşdırır. Dəyişikliklərin Müəssisənin maliyyə hesabatlarına heç bir mühüm təsiri olmamışdır.
- Birgə Əməliyyatlarda Əldə Edilmiş Gəlirlərin Uçotu başlıqlı 11 saylı BMHS-a Dəyişikliklər (2014-cü ilin may ayında dərc edilmişdir) – 2016-cı ilin yanvar ayından və ya daha sonra başlayacaq illik dövr üzrə tətbiq ediləcək dəyişikliklər , biznes fəaliyyətində (3 saylı BMHS üzrə müəyyən olunmuş) birgə əməliyyatlardan gəlir əldə edənin 11 saylı BMHS üzrə müəyyən edilmiş tələblərə zidd olan prinsiplər istisna olmaqla , 3 saylı BMHS və digər BMHS-lar üzrə müəyyən olunmuş bütün mühasibat uçotu prinsipləri və qeydlərini tətbiq etməsini tələb edir.

Dəyişikliklər həm birgə fəaliyyətdən əldə edilmiş ilkin gəlirə, həm birgə fəaliyyətdən əldə olunmuş əlavə gəlirə də tətbiq olunur.(sonuncu halda,əvvəldən saxlanılmış gəlir yenidən qiymətləndirilmir). Dəyişikliklərin Müəsissənin maliyyə hesabatlarına heç bir mühüm təsiri olmamışdır.

**Nəşr edilmiş, lakin hələ qüvvəyə minməmiş yeni və düzəliş edilmiş bildirişlər**

MüəssisəBMUSŞ tərəfindəntəsdiqolunmuş yeni və dəyişikliklər olunmuş lakin hələ qüvvəyə minməyən standartları 1 yanvar 2016-cı il tarixindən başlayan maliyyə ilinə tətbiq etməmişdir (Bu siyahı aralıq maliyyə hesabatlarına və ya BMUS-un ilk tətbiqçilərinə, Onların BMUS hesabatlarına təsir edən yeni və dəyişdirilmiş tələblər barədə məlumatları ehtiva etmir) Rəhbərlik yeni və dəyişikliklər edilmiş standartların effektivolduqdan sonra Müəssisənin maliyyə hesabatlarına tətbiq olunacağını təxmin edir.Müəssisə praktiki baxımdan gələcək dövrlərdə effektiv olacaq yeni və dəyişikliklər olunmuş standartların tətbiqinin potensial təsirlərini dəyərləndirmişdir.

- 7 saylı BMUS-a Düzəlişlər təşəbbüsü nə dəyişikliklər (2016-cı ilin yanvar ayında dərc edilmişdir). 1 Yanvar 2017-ci il tarixində və ya bu tarixindən sonra illik dövrlərdə tətbiq olunacaq düzəlişlərə əsasən, müəssisələrdən maliyyə fəaliyyətlərdən meydana gələn öhdəliklərində yaranan dəyişikliklər barədə maliyyə hesabatları istifadəçilərinə dəyərləndirməyə etməyə imkan verə biləcək məlumatı təmin etmək tələb olunur.
- 12 saylı BMUS- realizə olunmamış zərərlərə görə taxirə salınmış Vergi Aktivlərinin Tanınması standartına dəyişikliklər (2016-cı ilin yanvar ayında dərc edilmişdir)- 1 Yanvar 2017-ci il tarixində və ya bu tarixdən sonrakı illik dövrlərə tətbiq olunacaq dəyişikliklər, təcrübədəki çeşidliyi göstərmək üçün ədalətli dəyərlə qiymətləndirilən borc alətləri üzrə realizasiya olunmamış zərərlərlə bağlı təxirə salınmış vergi aktivlərinin mühasibat uçotuna aydınlıq gətirməkdədir. Dəyişikliklərin Müəssisənin maliyyə hesabatlarına heç bir mühüm təsiri olmamışdır.
- 2 saylı BMHS Pay alətləri əsasında ödəmə əməliyyatlarının təsnifləşdirilməsi və qiymətləndirilməsi standartına dəyişikliklər (2016-cı ilin iyun ayında dərc edilməmişdir)- 1 Yanvar 2018 tarixinə və bu tarixdən sonrakı illik dövrlərə tətbiq olunacaq dəyişikliklər , hüquqi və qeyri-hüquqi şərtlərin pul vəsaitlərlə həyata keçirilən pay alətləri əsasında olan ödənişlərin hesablanmasında , vergi öhdəliklərinin xalis həlletmə xüsusiyyətlə pay alətləri əsasında əməliyyatların təsnifatın nağd ödənişdən kapitala əsaslanan ödənişlərə dəyişməsinin ödəmə sövdələşmələrinin uçotuna olan təsirini , dəyişikliklərin pay alətlərinə əsaslanan ödəmələrin şərtləri üzərindəki təsirini müəyyən edir. Dəyişiklikərin Müəssisənin maliyyə hesabatlarına heç bir mühüm təsiri olmamışdır.
- 9 nömrəli BMUS Maliyyə alətlərinin 4 nömrəli BMUS Sığorta müqavilələri (2016-cı ilin sentyabr ayında dərc olunmuşdur) ilə tətbiq olunması başlığı altında 4 nömrəli BMUS-a düzəlişlər - Düzəliş Sığorta müqavilələri bağlayan bütün müəssisələrə idarə Heyəti tərəfindən hazırlamaqda olan 4 nömrəli BMUS Sığorta müqavilələri Standartının dəyişdirilməsindən əvvəl 9

nömrəli BMUS-in tətbiq olunduğu zaman yarana biləcək qeyri-sabitliyi mənfəət və zərər hesabatında taninmaq yerinə digər məcmu gəlirlər haqqında hesabatda tanımaq imkanı verir. Həmçinin, daha çox sığorta ilə əlaqəli olan müəssisələrə 9 nömrəli BMUS-a müvəqqəti qeyri-məcburi azad olma imkanı verir (2021-cı ilədək) və beləliklə, həmin müəssisələr 39 nömrəli BMHS-i tətbiq edə bilərlər.Müəssisə sığorta müqaviləsi bağlamadığındann bu düzəlişlərin maliyyə hesabatlarına təsiri gözlənilmir.

- 9 nömrəli BMUS Maliyyə alətləri (2014-cü ilin iyul ayında dərc olunmuşdur) – Bu standart 39 saylı BMHS-i (və 9 nömrəli BMUS-in bütün əvvəlki variantlarını ) 1 yanvar 2018-ci il tarixindən başlayaraq əvəz edecək. Bu standart maliyyə aktivləri və maliyyə öhdəliklərinin təsnifləşdirilməsi və meyarları, dəyərsizləşmə, hedcing uçotu və tanımanın dayandırılmasına aid tələbləri ehtiva edir.
- 9 nömrəli BMUS bütün tanınmış maliyyə aktivlərinin sonralar biznes modelinə və müqavilə üzrə pul vəsaitlərinin hərəkəti xarakteristikalarına əsaslanan təsnifatından asılı olaraq amortizasiya olunmuş dəyər və ya ədalətli dəyərdə tanınmasını tələb edir (mənfəət və zərər hesabatı və ya digər məcmu gəlirlər haqqında hesabatda)
- Maliyyə öhdəlikləri üçün 9 nömrəli BMHS-in əsas təsiri ədalətli dəyərin istifadəsinə aiddir: mənfəət və zərər hesabatında nəzərdə tutulan , digər məcmu gəlirlər haqqında hesabatda tanınan (mənfəət və zərər hesabatında deyil) maliyyə öhdəliyinin kredit riskindəki dəyişikliyinə aid olan ədalətli dəyərinin məbləğindəki dəyişiklik.Əks təqdirdə , bu mühasibat uyğunsuzluğu yaradır.
- Maliyyə aktivlərinin dəyərsizləşməsi üçün 9 nömrəli BMHS müqavilənin başlanması zamanı gözlənilən zərərə ehtiyat yaradılmasına əsaslanan “gözlənilən kredit zərəri” modelini təqdim edir; Bundan sonra kredit zərərinin tanınmasından əvvəl dəyərsizləşmə sübutunun olması vacib deyil.
- Hedcinq mühasibatlığı üçün 9 nömrəli BMHS maliyyə hesabatlarının maliyyə və qeyri-maliyyə risklərində hedcinq alətindən istifadə olunması fəaliyyətini daha yaxşı əks etdirməsi üçün əsas təqdim edir.
- Ehtiyatın tanınmasına dayandırılması,demək olar ki, 39 nömrəli BMHS-də olduğu kimi saxlanılmışdır.

Rəhbərlik 9 nömrəli BMHS-in məcburiyyət yarandıqda Müəssisənin maliyyə hesabatlarında tətbiq olunacağı və yeni standartın tətbiqinin Müəssisənin maliyyə aktivləri və maliyyə öhdəlikləri ilə əlaqəli hesabatlar üzərində əhəmiyyətli təsirinin olacağı fikrindədir.Lakin, ətraflı araşdırma tamamlanmadan bu təsirin məqbul səviyyədə təxmin edilməsi uyğun hesab edilmir.

- İnvestor və onun Tərəfdaşı və ya Birgə Müəssisəsi arasında aktivlərin satışı və qatqı payı başlıqlı (2014=-cü ilin sentyabr ayında dərc edilmişdir.)28 nömrəli BMUS və 10 nömrəli BMHS-a dəyişikliklər – iki standart arasındakı mövcud uyğunsuzluğa yer verir və əməliyyat bir fəaliyyəti ehtiva etdikdə vəbu zaman işlə əlaqəli olmayan aktivləri daxil edirsə, mənfəət və ya zərərin tam olaraq tanınmasının vacibliyinə aydınlıq gətirir.Dəyişikliklərin qüvvəyə mindiyi tarix , ilk olaraq , 1 Yanvar 2016-cı il tarixində və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün müddətsiz olaraq təxirə salınsa da,daha tez tətbiqə də icazə verilir.Dəyişikliklərin Müəssisənin maliyyə hesabatlarına heç bir mühüm təsiri olmamışdır.
- 15 nömrəli BMHS Müştərilərlə bağlanan müqavilələrdən gəlir (2014-cü ilin may ayında dərc olunmuş və 2016-cı ilin aprel ayında izahlar üçün düzəliş edilmişdir) – 1 Yanvar 2018-ci il tarixi və bu tarixdən sonra başlayan hesabat dövrləri üçün etibarlı olan yeni standart,11 nömrəli BMUS , 18 nömrəli BMUS və izahlarını əvəz edir.Əməliyyatlar,sənaye sektorları və investesiya bazarlarında müntəzəm olaraq tətbiq olunan ətraflı açıqlamalar və yeni və ya təkminləşdirilmiş təlimat şəklində gəlirin tanınması üçün tək və geniş (müştərilərin bütün müqavilələrinə tətbiq olunacaq beş mərhələli bir modelə əsaslanan) bir çərçivə yaradır (misal olaraq, gəlirin tanınması məsələsi dəyişkən mülahizələrin nəzərə alınması, müqavilənin bağlanması və yerinə yetirilməsi xərcləri və s). Rəhbərlik 15 nömrəli BMHS-in məcburiyyət yarandıqda Müəssisənin maliyyə hesabatlarına tətbiq olunacağı və yeni standartın tətbiqinin Müəssisənin gəlirləri ilə əlaqəli hesabatlar üzərində əhəmiyyətli təsirinin olacağı fikrindədir.Buna baxmayaraq, ətraflı araşdırma tamamlanmadan bu təsirin məqbul səviyyədə təxmin edilməsi uyğun hesab edilmir.

16 nömrəli BMHS Lizinq (2016-cı ilin yanvar ayında dərc olunmuşdur) – 1 yanvar 2019-cu il və bu tarixdən sonra başlayan hesabat dövrələri üçün etibarlı olan yeni standart, 17 nömrəli BMUS və izahını əvəz edir.Göstərilən ən böyük dəyişiklik, demək olarki, bütün lizinqlərin,tək bir modelə əsasən (12 aydan qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla) icarədarların balans hesabatlarında göstərilməklə əməliyyat və maliyyə lizinqi arasındakı fərqi aradan qaldırmasıdır.Buna baxmayaraq, icarəyə verənin mühasibat uçotu böyük dəyişikliyə məruz qalmır və əməliyyat və maliyyə lizinqləri arasında fərq saxlanılır.Rəhbərlik 16 nömrəli BMHS – in məcburiyyət yarandıqda Müəssisənin maliyyə hesabatlarına tətbiq olunacağı və yeni standartın tətbiqinin Müəssisənin maliyyə lizinqləri ilə əlaqəli hesabatlar üzərində əhəmiyyətli təsiri olacağı fikrindədir.Buna baxmıyaraq, Ətraflı araşdırma tamamlanmadan bu təsirin məqbul səviyyədə təxmin edilməsi uyğun hesab edilmir.

## 6. Pul vəsaitləri və onun ekvivalentləri

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Kassada olan pul vəsaiti | 0.00 | 0.00 |
| Bank hesablarında pul vəsaiti | 18.307.208 | 104.743.251 |
| Depozit hesabı | 0.00 | 0.00 |
| **CƏMİ** | **18.307.208** | **104.743.251** |

## 7. Debitor borclar

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Uzunmüddətli | 516.442.234 | 38.717.433 |
| Qısamüddətli | 47.259.261 | 361.669.678 |
| **CƏMİ** | **563.701.495** | **400.387.111** |

Debitor borcların ədalətli dəyəri balansda göstərilən qalıq dəyərinə uyğundur. Debitor borcların coğrafi məkanı Azərbaycandır.

## 8. Verilmiş avanslar

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Malgöndərənlərə avanslar | 78.285.719 | 55.301.617 |
| **CƏMİ** | **78.285.719** | **55.301.617** |

## 9. Ehtiyatlar

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Mallar | 225.495.678 | 132.548.349 |
| ATƏ | 187.803 | 64.839 |
| Materiallar | 1.264.052 | 1.269.483 |
| **CƏMİ** | **226.947.533** | **133.884.937** |

# 10. Torpaq, tikili və avadanlıqlar

| | **Binalar** | **Maşın və avadanlığı** | **Nəqliyyat vasitələri** | **Mebel, təsərrüfat inventarları və sair** | **Torpaq** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **01 yanvar 2015-ci il tarixinə balans dəyəri** | **35 194 984** | **1 513 485** | **440 572** | **-** | **78 240** | **37 227 281** |
| Daxilolmalar | 47 600 | 235 803 | | 3 960 | - | 287 363 |
| Xaricolmalar | - | | - | - | - | - |
| Amortizasiya ayırmaları | (2 466 981) | (437 322) | (110 143) | (792) | - | (3 015 238) |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | - | | - | - | - | - |
| Təmir xərclərinə düzəliş | - | - | - | - | - | - |
| **31 dekabr 2015-cüi il tarixinə balans dəyəri** | **32 775 603** | **1 311 966** | **330 429** | **3 168** | **78 240** | **34 499 406** |
| 31 dekabr 2015-cü il tarixinə dəyər və ya qiymətləndirmə | 49 366 217 | 4 114 104 | 3 178 895 | 3 960 | 78 240 | 56 741 416 |
| Yığılmış amortizasiya | (16 590 614) | (2 802 138) | (2 848 466) | (792) | - | (22 242 010) |
| **31 dekabr 2015-ci il tarixinə balans dəyəri** | **32 775 603** | **1 311 966** | **330 429** | **3 168** | **78 240** | **34 499 406** |
| Daxilolmalar | | 90 456 | 73 593 | | | 164 049 |
| Xaricolmalar | | | | | | - |
| Amortizasiya ayırmaları | (2 294 292) | (350 654) | (100 957) | (634) | | (2 746 537) |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | | | | | - |
| Təmir xərclərinə düzəliş | | | | | | - |
| **31 dekabr 2016-cı il tarixinə balans dəyəri** | **30 481 311** | **1 051 768** | **303 065** | **2 534** | **78 240** | **31 916 918** |
| 31 dekabr 2016-cı il tarixinə dəyər və ya qiymətləndirmə | 49 366 217 | 4 204 560 | 3 252 488 | 3 960 | 78 240 | 56 905 465 |
| Yığılmış amortizasiya | (18 884 906) | (3 152 792) | (2 949 423) | (1 426) | - | (24 988 547) |
| **31 dekabr 2016-cı il tarixinə balans dəyəri** | **30 481 311** | **1 051 768** | **303 065** | **2 534** | **78 240** | **31 916 918** |
| Daxilolmalar | | 298 678 | | 134 479 | | 433 157 |
| Xaricolmalar | (348 415) | | | | | (348 415) |
| Amortizasiya ayırmaları | (2 109 303) | (227 896) | (60 574) | (61 452) | | (2 459 225) |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | | | | | - |
| Təmir xərclərinə düzəliş | | | | | | - |
| **31 dekabr 2017-ci il tarixinə balans dəyəri** | **28 023 593** | **1 122 550** | **242 491** | **75 561** | **78 240** | **29 542 435** |

## 11. Qeyri-maddi aktivlər

| | Proqram təminatı | Lisenziyalar | İstifadə hüququ | Cəmi |
|---|---|---|---|---|
| **31 dekabr 2014-cü il tarixinə balans dəyəri** | **389 249** | **2 880** | **2 880** | **395 009** |
| Daxilolmalar | | - | 2 310 | 2 310 |
| Xaricolmalar | - | - | - | - |
| Amortizasiya ayırmaları | (40 330) | (360) | (937) | (41 627) |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | - | - | - | - |
| Təmir xərclərinə düzəliş | - | - | - | - |
| **31 dekabr 2015-ci il tarixinə balans dəyəri** | **348 919** | **2 520** | **4 253** | **355 692** |
| 31 dekabr 2015-ci il tarixinə dəyər və ya qiymətləndirmə | 403 299 | 3 600 | 5 910 | 412 809 |
| Yığılmış amortizasiya | (54 380) | (1 080) | (1 657) | (57 117) |
| **31 dekabr 2015-ci il tarixinə balans dəyəri** | **348 919** | **2 520** | **4 253** | **355 692** |
| Daxilolmalar | 110 796 | 700 | 210 | 111 706 |
| Xaricolmalar | | | | - |
| Amortizasiya ayırmaları | (51 462) | (561) | (1 749) | (53 772) |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | | | - |
| Təmir xərclərinə düzəliş | | | | - |
| **31 dekabr 2016-cı il tarixinə balans dəyəri** | **408 253** | **2 659** | **2 714** | **413 626** |
| 31 dekabr 2016-cı il tarixinə dəyər və ya qiymətləndirmə | 514 095 | 4 300 | 6 120 | 524 515 |
| Yığılmış amortizasiya | (105 842) | (1 641) | (3 406) | (110 889) |
| **31 dekabr 2016-cı il tarixinə balans dəyəri** | **408 253** | **2 659** | **2 714** | **413 626** |
| Daxilolmalar | | | | - |
| Xaricolmalar | | | | - |
| Amortizasiya ayırmaları | (50 873) | (561) | (1 749) | (53 183) |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | | | - |
| Təmir xərclərinə düzəliş | | | | - |
| **31 dekabr 2017-cı il tarixinə balans dəyəri** | **357 380** | **2 098** | **965** | **360 443** |

## 12. Kapital qoyuluşu

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Başa çatmamış tikinti işləri | 10.549.462 | 10.549.462 |
| **CƏMİ** | **10.549.462** | **10.549.462** |



*6-21 ci səhifələrdə göstərilən Şərhlər və Qeydlər bu Maliyyə Hesabatının tərkib hissəsidir.*

31 dekabr 2017 və 31 dekabr 2016 cı il tarixində bitən illərdə kapital qoyuluşu kimi uçota alınan məbləğlər Azərbaycan Respublikasının bölgələrində olan filiallarda, ofis binaları, logistik anbar, texniki park və xidmət sahələrində aparılan bitməmiş işlərinə çəkilən xərclərdən ibarətdir. Tikinti işləri aparılarkən təhvil-təslim aktlarına əsasən, mühasibat uçotunda kapital qoyuluşu kimi əks etdirilir. Tikinti bitdikdən sonra Dövlət aktı tərtib olunduqdan sonra həmin kapital xərcləri əsas vəsait kimi tanınır.

## 13. Uzunmüddətli öhdəliklər

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Dövlət büdcəsi üzrə | 244.695.419 | 243.353.356 |
| Prezidentin ehtiyat fondundan | 98.524.762 | 98.524.762 |
| KT nazirliyinin tərəfdaşlıq | 9.192.685 | 9.192.685 |
| Uzunmüddətli bank krediti | 0.00 | 13.500.000 |
| **CƏMİ** | **352.570.803** | **366.070.803** |

## 14. Kreditor borclar

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Mallara, işlərə və xidmətlərə görə | 13.373.952 | 8.846.983 |
| Sığorta | 0.00 | 0.00 |
| **CƏMİ** | **13.373.952** | **8.846.983** |

## 15. Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Vergilər üzrə borclar | 0.00 | 1.517 |
| DSMF üzrə borclar | 64.34 | 0.00 |
| **CƏMİ** | **64.34** | **1.517** |

## 16. Kapital ehtiyatları

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Səhmdar tərəfindən əvəzsiz verilmiş | 587.918 | 587.918 |
| Digər kapital ehtiyatları | 19.220.730 | 19.209.157 |
| **CƏMİ** | **19.808.648** | **19.797.075** |

## 17. Sair qısamüddətli öhdəliklər

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Sığorta ödənişləri | 221.193 | 192.063 |
| Təhtəlhesab üzrə öhdəliklər | 0.00 | 0.00 |
| Gələcək dövrün gəlirləri | 10.241.937 | 10.401.857 |
| Digər kreditorlar | 18.482.036 | 7.815.616 |
| **CƏMİ** | **28.945.166** | **18.409.536** |

## 18. Satışdan gəlir

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Kənd təsərrüfatı texnikasının lizinqi | 111.167.993 | 69.263.580 |
| Gübrə satışı | 49.498.460 | 39.728.788 |
| KTT –nın ehtiyyat hissələrinin satışı | 161.918 | 132.886 |
| Pestisid satışı | 277.667 | 438.345 |
| Texnoloji avadanlığın lizinqi | 3.228.573 | 4.776.309 |
| Damazlıq mal-qaranın lizinqi | 16.437.056 | 13.322.656 |
| **CƏMİ** | **180.771.667** | **127.662.564** |

## 19. Satışların maya dəyəri

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Kənd təsərrüfatı texnikasının lizinqi | 103.414.115 | 66.066.231 |
| Gübrə satışı | 44.223.055 | 36.587.872 |
| KTT –nın ehtiyyat hissələrinin satışı | 182.710 | 148.786 |
| Pestisid satışı | 248.500 | 376.228 |
| Texnoloji avadanlığın lizinqi | 3.116.851 | 4.594.063 |
| Damazlıq mal-qaranın lizinqi | 16.255. 470 | 13.196.904 |
| **CƏMİ** | **167.440.701** | **120.970.084** |

## 20. İnzibati xərclər

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Əmək haqqı | 3.965.162 | 3.507.239 |
| DSMF 22% | 839.386 | 764.407 |
| Ezamiyyə xərcləri | 198.233 | 173.160 |
| Qaz, su, kanalizasiya xərcləri | 7.497 | 4.762 |
| Elektrik enerjisi | 94.588 | 58.774 |
| Bank komissiyaları | 741.771 | 466.968 |
| Yanacaq xərcləri | 50.642 | 42.511 |

| | | |
|---|---|---|
| Torpaq vergisi | 49.078 | 49.078 |
| Əmlak vergisi | 274.737 | 297.234 |
| Yol vergisi | 0.00 | 0.00 |
| Rabitə xərcləri | 102.670 | 79.263 |
| Materiallar və ATƏ köhnəlməsı | 53.183 | 121.607 |
| Təmir xərcləri | 157.856 | 49.893 |
| Sığorta xərcləri | 1.626.256 | 971.015 |
| Əvvəlki illərin vergi xərcləri | 0.00 | 3.175.338 |
| Digər xərcləri | 177.677 | 340.876 |
| **CƏMİ** | **8.338.737** | **10.102.125** |

## 21. Sair əməliyyat gəlirləri və xərcləri

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Müsbət məzənnə fərqi | 13.121.063 | 16.246.388 |
| Mənfi məzənnə fərqi | (27.504.218) | (7.499.726) |
| AR N.K. qərarlarına əsasən zərər | | (13.835.777) |
| **CƏMİ** | **(14.383.155)** | **(5.089.115)** |

## 22. Sair qısamüddətli aktivlər

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| Alınacaq sığorta ödənişləri | 1.214.653 | 1.028.220 |
| İşçi heyəti üzrə debitor borcları | 73 | 73 |
| Sosial sığorta ödənişləri üzrə | 936 | 665 |
| Vergi üzrə debitorlar | 119.163 | 84.659 |
| Digər qısamüddətli aktivlər | 3.317.316 | 14.184.949 |
| **CƏMİ** | **4.652.144** | **15.298.566** |

## 23. Hesabat tarixindən sonra baş vermiş hadisələr.

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edə biləcək hadisə baş verməmişdir.